# Sənaye məhəllələri regionların iqtisadi statusunu dəyişir

**Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində son illər görülən işlərin siyahısı genişdir. Müxtəlif layihələr icra olunur və bu zaman qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət yetirilir. Bu da təsadüfi deyil. Çünki hədəf qeyri-neft sənayesini ölkə iqtisadiyyatının aparıcı sahəsinə çevirməkdir. Bu istiqamətdə son illər ölkədə onlarca yeni müasir müəssisə yaradılıb. Nəticədə daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb.**

Azərbaycanda regional sənaye quruculuğu bölgələri təkcə aqrar deyil, həm də sənaye əsasında inkişaf etdirir. Prezident İlham Əliyevin də sənayeləşmə siyasəti ilə bağlı qarşıya qoyduğu mühüm vəzifələrdən biri ölkəmizdə sənayenin məhz regional strukturunun təkmilləşdirilməsi və hər rayonda sənaye məhəllələrinin yaradılması ilə bağlıdır. Bu gün regionlarda innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin, həmçinin qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, əhalinin məşğulluğunu artırmaq məqsədilə sənaye parkları və məhəllələri yaradılır. Neftçala, Masallı, Sabirabad, Hacıqabul və Şərurda sənaye məhəllələri artıq 5 ildən çoxdur ki, sahibkarların istifadəsindədir. Sənaye məhəllələrində çalışmaq istəyən rezidentlərin sayının sürətlə artması dövlətin bu istiqamətdə atdığı addımların hədər getməməsindən xəbər verir. Həmin addımların sayı isə az deyil. Sənaye zonalarında bütün infrastrukturun, kommunikasiyaların yaradılması, ofis binalarının tikintisi dövlət hesabına həll olunur. Bu isə az xərc tələb etmir.



Götürək Hacıqabul Sənaye Məhəlləsini 2021-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə açılışı olan Hacıqabul Sənaye Məhəlləsi yaradılanda məqsəd bu idi ki, sənayedə mikro, kiçik və orta sahibkarların fəaliyyəti dəstəklənsin, qeyri-neft sektorunun davamlı inkişafı təmin edilsin və əhalinin istehsal sahəsində məşğulluğu artırılsın. Ötən illər bu sadalananlarla bağlı məhəllədə xeyli iş görülüb. Fəaliyyətə başladığı gündən bu sənaye subyektinə sahibkarlar tərəfindən böyük maraq göstərilib. Hələlik 200 nəfərdən çox şəxsin daimi işlə təmin edildiyi sənaye məhəlləsində ümumi investisiya həcmi 163 milyon manatdan çox olan 14 sahibkarlıq subyekti rezident kimi qeydiyyatdan keçib və onlardan 8-i artıq fəaliyyətə başlayıb. Mövcud layihələr üzrə əlavə olaraq sənaye məhəlləsinə 120 milyon manata yaxın investisiyanın yatırılması, 1500-dən artıq iş yerinin yaradılması nəzərdə tutulur.

Hacıqabul Sənaye Məhəlləsində fəaliyyət göstərən sahibkarlar işlərini müasir dövrün tələblərinə uyğun qururlar və səmərəsini də görürlər. İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin son məlumatında bildirilir ki, Hacıqabul Sənaye Məhəlləsində indiyədək 162 milyon manatlıqdan çox məhsul istehsal edilib. Əgər məhəllədə 2022-ci ildə 38 milyon manatlıq məhsul istehsal edilmişsə, 2023-cü ildə bu rəqəm 3 dəfədən çox (118 milyon manatlıqdan çox) olub. Bu günədək Hacıqabul Sənaye Məhəlləsinə sahibkarlar tərəfindən 45,6 milyon manat investisiya yatırılıb.

Yeri gəlmişkən, onu da qeyd edək ki, 2023-cü ilin oktyabrında bu məhəllədə "Penoplex Prikavkazye" MMC-nin istilik izolyasiya lövhələrinin istehsalı müəssisəsi fəaliyyətə başlayıb. İllik istehsal gücü 100 min kubmetr olan Rusiya kapitallı müəssisənin investisiya dəyəri 18,4 milyon manatdır. İstehsal olunan məhsulların 60 faizinin daxili bazarda satışı, 40 faizinin isə ixracı planlaşdırılıb. Sənaye Məhəlləsinin 6,7 hektar ərazisində inşa olunmuş müəssisə dövlət vəsaiti hesabına zəruri infrastrukturla (qaz, işıq, su, kanalizasiya, yol) təmin edilib. Ötən bir neçə ayda müəssisənin fəaliyyət göstərməsi tikinti sektorunun ikişafına və bölgədə məşğulluğun artmasına səbəb olub.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

azerbaijan-news.az